**“Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanının 2.1-ci bəndinə əsasən **qərara alıram:**

1. “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə bağlı maliyyələşdirilmə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin saxlanılması xərclərində nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilsin.

3. “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 20 fevral tarixli 2055 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2012, № 2, maddə 162) 1-ci, 2-ci və 4-cü hissələri bu Sərəncam qüvvəyə mindiyi gündən ləğv edilsin.

4. Bu Sərəncam 2013-cü il aprelin 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 mart 2013-cü il
№ 2822